**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 3**

**Bakı şəhəri, 9 yanvar 2018-ci il**

**"Azərbaycan Respublikası vətəndaşlarının pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi qaydası barədə" Azərbaycan Respublikası Milli Məclisinin qərarının həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 1 sentyabr tarixli 479 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

"İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanının 1.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 1 sentyabr tarixli 479 nömrəli qərarı ilə təsdiq edilmiş "İstehlak mallarının və xidmətlərin qiymət artımı ilə əlaqədar əhalinin pul gəlirlərinin indeksləşdirilməsi qaydası haqqında metodiki təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. II hissənin birinci abzasından "işsizliyə görə" sözləri çıxarılsın;

1.2. V hissənin on doqquzuncu abzasından "(o cümlədən işsizliyə görə verilən müavinətlərin)" sözləri çıxarılsın;

1.3. VII hissənin yeddinci abzası ləğv edilsin.

2. Bu qərar 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**